

*Meyxoş Abdullah*

# Su şırıltısı...

(hekayə)

**(əvvəli ötən sayımızda)**

Bu əhvalatın üstündən bir neçə ay ötmüşdü. Vaxtım olandan, olana dəniz kənaraına gedib düşüncələrə dalar, adətim üzrə dənizlə söhbət edirdim.

Bu gün də belə günlərdən biri idi. Günəş hələ çıxmamışdı. Ətraf çox sakitlik idi. Dənizin qırçınlı ləpələri adamın yorğun əhvalına, elə bil sığal çəkirdi. Bərk düşüncələrə dalmışdım. Birdən qulağıma qəribə bir səs gəldi. Bu səs, sanki qərinələrin dərinliklərindən gəlirmiş kimi məni diksindirdi:

- Salam, sabahınız xeyir olsun, dənizin dostu! - deyə kimsə dilləndi.

Bu səs, onun səsi idi... Hansı ki, bir neçə ay bundan qabaq təyyarədə tanış olduğum qadının səsi.

Geri çevrildim. İdman paltarında, gözündə qara eynək olan bir qadın dayanmışdı arxamda. Mütənasib bədən qurluşu idmançılarda olduğu kimiydi. Elə bil bürüncdən yonulmuş heykəl idi, dübbədüz dayanmışdı. Özümü itirən kimi oldum. O bunu hiss etdiyindən, əlini mənə tərəf uzadıb:

- Xoş gördük sizi, hörmətli yazıçım. Əlimi ona tərəf uzatdım. Əlim, elə bil bir topa pambığa dəydi, onun əli yumyumuşaq idi.

- Necəsiniz, nə xoş təsadüf? - deyə soruşdum.

- Mən demək olar ki, səhərlər tez-tez gəlirəm dəniz sahilinə, təbii ki ələvə bir işim çıxmayanda.

- Mən isə şəhərə yolum düşəndən düşənə gəlirəm bura. Nə işim olsa, birinci növbədə dənizə baş çəkirəm. Demişdim axı sizə, dənizi çox sevirəm.

- Hə, dənizi sevdiyinizi bilirəm. Şəkillərinizdən görmüşəm. Bəs, necə, - dedi, - sizinlə tanışlıqdan sonra haqqınızda çox şey öyrənə bildim? Hətta, əsərlərinizi oxumağa da vaxt tapmışam. Açığını deyim ki, gözəl yazırsınız.

- Doğurdan? - deyə sevncək soruşdum.

- Hə, əlbəttə, sadə və şirin dildə. Doğrusu, kitab oxumağa vaxtım az olur, amma əlimə yaxşı əsər keçəndə mütləq oxuyuram. Mənimki, musiqidir, bir də rəsm əsərləri çəkmək. Boş vaxtlarımda bunlarla məşğul oluram. Birdə ki, səhərlər və işdən sonra bu sevimli dəniz. - Evimiz bura çox yaxındır, beş-on dəqiqəlik yoldur. - Bəs, siz harada olursunuz? - deyə qadın soruşdu.

- Mən rayonda yaşayıram, işimlə bağlı tez-tez şəhərə gəlib gedirəm.

- Şəhərdə eviniz olmamış olmaz? - deyə soruşdu

- Yox! - deyə cavab verdim. Gələndə dost, tanış evində, çox vaxt da mehmanxanada qalıram.

- Bəs, bu tezdən dəniz sahilinə haradan gəlib çıxmısınız?

- Rayondan?

- Yaxı da, zarafat etməyin?

- Həqiqi sözümdür, ala-qaranlıqdan durmuşam, günəş çıxmamış özümü şəhərə çatdırmışam. Maşınla iki-üç saatlıq yoldur.

- Çox sevdim sizin dəniz sevdanızı. Həqiqətən, qibtə olunasıdır. - Bəs, niyə şəhərə köçmürsünüz?

- Çox istəyirəm, köçüb gəlim Bakıya, amma imkanım yoxdur. Bu yaşımda da, kirayədə qalmaq mənə çətin olar.

- Hə, elədir, hər işin öz vaxtı var, gərək işlərini vaxtında görəsən. - Gəl, belə edək, görürəm evdən tez çıxdığınıza görə, nahar da etməmisiniz, gedək bizə yaxşıca nahar edək. Sizə gözəl kofe dəmləyim, bir az söhbət edək. Sonra hara istəsəniz gedə bilərsiniz, yaxşımı?

Onun bu təklifi mənə qəribə gəlsə də, amma ürəyimdən oldu. Etiraz da edə bilməzdim. Birdə ki, bu qadın haqqında ürəyimdəki gizli marağım mənə dərhal onunla razılaşmağa məcbur etdi.

Xanım, yaxınlıqdakı bağ evlərindən birinin darvazasının qapısını açarla açanda hiss etdim ki, o bu evdə tək yaşayır. Həyətə girəndə gül-çiçəkli bir mənzərəylə rastlaşdıq. İlk gözümə dəyən iri tut ağacı oldu. Bir az kənarda isə gözəl şaftalı ağacı vardı, meyvəsi çox olduğundan budaqlarının ucu yerə dəyirdi. Həyət olduqca səliqə, səhmanlı idi. Hər şey onun özünə oxşayırdı.

Biz otağa keçdik, dəbdəbəli olmasa da, şəhər evlərinə xas olan gözəl arxetektur nümunələri ilə bəzədilmiş otaqları göz oxşayırdı.

Qonaq otağı yığcam və səliqəli idi. Divarlarından gözəl tablolar asılmış otaq adamın zövqünü oxşayırdı.

Birlkdə nahar etdik. Doğrusu, çox sıxılırdım. O bunu hiss etdiyindən gülə-gülə:

- Hörmətli yazıçı, mən sizin adınızı bilirəm, əsərlərinizi oxuyanda tanış olmuşam, amma siz nə təyyarədə, nə də indi heç mənim adımla maraqlanmamısınız?

- Doğrusu, elə bil ayılan kimi oldum. Qadının həddən artıq ciddi olması onun adını soruşmağa çəkindirmişdi məni.

- Elə isə, buyurun, xahiş edirəm, adınızı deyin! - deyə cəsarətləndim.

- Adım Aliyədir. Elə belə də müraciət edə bilərsiniz.

- Gözəl adınız var, - deməyə özümdə güclə cəsarət tapdım. Bunu o da hiss etdi.

Səhər yeməyindən sonra məni kitabxanasıyla tanış etdi. Onun kitabxanası çox zəngin idi. Nadir kitab nümunələrinin ötəri də olsa gözümə dəyməsindən hiss edirdim bunu.

Onun iş otağına keçdik. Başqa otaqlarda olduğu kimi iş otağında da, divardan asılmış çoxlu tablolara rast gəldim. Tabloları mənə göstərərək:

- Çoxunu özüm çəkmişəm, - dedi.

Doğurdan da, çox gözəl rəsm əsərləri idi.

Divarın bir küncündə, səliqə ilə asılmış hərbi geyim formasını görəndə təəccübləndim. Və o anda düşündüm ki, bu qadının həyat yoldaşı hərbiçidir. Amma diqqətlə baxanda bu hərbi formanın qadının özünə aid olduğunu gördüm. Tezcə də fikrimdən daşındım və tam yəqinliklə əmin oldum ki, bu xanım özü hərbiçidir, özü də lap böyüyündən. Çünki hərbi formanın çiyinlərindəki iri ulduzlar mənə fikrimi təsdiqləməyə imkan verirdi. Ondan heç nə soruşmadım. Fikirləşdim ki, əgər evində olduğum bir saat ərzində bu xanım özü haqqında bir məlumat verməyibsə, demək soruşmağa da dəyməz.

Bir azdan Aliyə xanıma gedəcəyimi bildirdim.

- Özünüz bilin getmək istəyirsinizsə gedin. Əgər qalmağa yeriniz yoxdursa, çəkinməyin, qala bilərsiniz, evimiz genişdir - dedi.

- Yox, əziyyət verməyim. Getsəm yaxşıdır, - dedim.

- Hə, onda özünüz bilən məsləhətdir. Yəqin ki, biz yenə də görüşəcəyik, - dedi. - Axı, hər ikimiz dənizi çox sevirik.

- Əlbəttə, görüşəcəyik! - dedim.

Ayrılan zaman:

- Sizin davranışınız çox xoşuma gəldi, gözəl yazıçı olmağınızla yanaşı, həm də gözəl insansınız, - dedi.

Ona təşəkkür etdim. Amma öz-özümə yolboyu sual verirdim: - Axı, bu hərbiçi qadın kimdir?! Nə işin sahibir?! Bu fikir uzun müddət mənim beynimdən silinmədi.

Bir də onunla təxminən bir ay sonra, sentyabr ayında görüşdük. Yenə dənizkənarı parkda. Həmin günü çox kövrək idim. Elə dolmuşdum ki... Sən demə, Aliyə xanım kənardan mənə göz qoyurmuş. Hətta, dənizlə söhbət etməyim də onun gözlərindən yayınmamışdı.

- Yaman dərdləşirdin dənizlə, xeyir ola, bir hadisəmi baş verib? - soruşdu.

- Yox, nə hadisə, sadəcə olaraq, bura gələndə çox kövrəlirəm. Çünkü bura mənim qibləgahımdır. Burada mən təmizlənirəm.

- Qəribə insansınız, dərdinizi açmağa bu böyüklükdə şəhərdə bir kimsəniz yoxdurmu? Necə olsa, tanınmış yazıçısınız. Sizə rəğbət bəsləyən qadınlar olar.

- Var, niyə yoxdur?- deyə gülümsədim.

- Aha!.. Dedim axı, bizim yazıçı bu cür gözəl əsərləri elə beləcə havadan yazmaz. İlham pəriniz çoxdurmu? - deyə, gülə-gülə soruşdu.

- Yox, birdənədir. Hər dəfə bura yolum düşəndə ancaq onunla görüşürəm. Məni bu şəhərdə qarşılayan da odur, yola salan da. Nə gizlədim, sevirəm onu?

- Çox gözəl. O da sizi sevirmi?

- Sevən vaxtları da olur, sevməyən də. Arada mülayim olur, arada kükrəyib, əsib, coşur. Belə də, bir-birmizi yola veririk.

- Anlamadım sizi, yəni siz də...

- Aliyə xanım, bu dənizi siz tanımırsınız? Arada sakit olur, arada da aləmi vurub dağıdır.

Əsmər xanım söhbətin nədən getdiyini indi anlayırmış kimi bərkdən güldü. Onun gülüşü çox gözəl idi. Amma mənə elə gəld ki, o, ömründə birinci dəfəydi ki, belə ürəkdən gülürdü... Özümü saxlaya bilməyib:

- Aliyə xanım, siz niyə belə qəmlisiniz? Həyatınızda nə isə bir hadisəmi baş verib?

O duruxdu. Sifəti ciddiləşdi. Üzünü mənə tərəf tutub dedi:

- Sizdən birinci və sonuncu dəfə xahiş edirəm. Bir də şəxsi həyatımla bağlı mənə sual verməyin. Mən belə sualları xoşlamıram.

Doğrusu, pərt oldum. Axı, mən niyə belə etdim, düşündüm?

O mənim belə bir vəziyyətə düşdüyümü dərhal hiss etdi. Pərtliyimi aradan qaldırmaq üçün qoluma toxundu və:

- Mən sizin xatirinizi çox istəyirəm, inanın. Amma insan həyatında elə məqamlar var ki, onlar sirr olaraq insanla birlikdə həyatdan köçməlidir. O sirri heç kəsə açmaq olmur. Deyiləsi sözləri də gərək zamanı gələndə deyəsən. Sizə deyiləsi sözlərim olacaq, amma indi zamanı deyil.

Hiss etdim ki, Aliyə xanım mən tanıdığım xanımlardan deyil. O nə isə sirrli bir dünyanın adamıdır. Ona görə də, özümə söz verdim ki, bir daha ondan, mənə aid olmayan məsələlər barədə soruşmayacağam.

İllər gəlib keçdi, Aliyə xanımla görüşümüz ancaq dəniz sahilində olurdu. Onun haqqında, demək olar ki, heç nə bilmirdim. Görüş zamanı da ancaq ədəbiyyatdan, siyasətdən danışardıq. Arada da kefinin duru vaxtı mənə sataşardı. Deyərdi: - Sizin bu dəniz sevginiz mənim xoşuma gəlir. Çox sədaqətlisiniz sevginizdə, - söyləyirdi. Amma dəniz sizdən mənə arada şikayət edir, az-az görünürsünüz? - deyirdi.

- Bunu dəniz deyir, ya siz deyirsiniz, Aliyə xanım? - deyə soruşurdum.

- Elə mən də, dəniz də... Hər ikimiz sizi çox istəyirik. Bir fikirim var, baş tutsa dənizlə sizi qovuşduracağam. Doğrusu, qibtə edirəm sevginizə, mən də ömrümboyu belə bir sevginin həsrətində olmuşam, - deyə etiraf edərdi.

Onunla söhbətimiz çox vaxt çətin olurdu mənə. İçində dünyanın sirrini yığıb saxlamışdı, elə bil. Soruşmağı da mənə qadağan etmişdi. Onu çox istəyirdim, hiss edirdim ki, o qadını sevirəm. Məni başa düşməyə bilməzdi, amma heç vaxt bunu bürüzə vermək istəmirdi. Bu insanın, bəzən qadın olduğuna şübhə edirdim. İçimdə ona qarşı olan maraq didib parçalayırdı məni. Onun qollarından yapışıb, gözlərinin içinə baxaraq: - Aliyə xanım, axı siz kimsiniz? - soruşmaq istəyirdim ondan.

Bəzən qəlbinə dəyirdim, uşaq kimi kövrəlirdi, küsürdü. Ondan bağışlanmağımı xahiş edirdim, o dəqiqə günahımdan keçirdi.

Son günlər ona qarşı olan istəyim çox artmışdı. Hiss edirdim ki, onsuz darıxıram. Amma o, məni hələ də özündən kənar saxlayırdı. Səsi gecələr yuxuda qulaqlarıma gəlirdi. Bu səsin sehiri mənim dünyamı əlimdən alırdı, elə bil.

Hələ də, bu səsin nəyə bənzədiyini tapa bilməmişdim. Hər görüşümüz zamanı soruşurdu: - Mənim səsimin ahəngini tapa bildinizmi? Onun bu sözündən sonra utanırdım. Acizanə şəkildə üzr istəyib deyirdim: - Aliyə xanım, axtarıram, bir gün mütləq tapacağam!..

Son görüşümüz onunla çox kədərli oldu. Dəniz kənarında görüşdük. Güllü don geyinmişdi. Çox gözəl görünürdü. Ayağındakı hündürdaban tuflisi onun boyunu bir az da uca etmişdi. Bu görkəmində o daha baxımlı görünürdü.

- Bizə gedəcəyik! - dedi.

Doğrusu, onun bu təklifi mənə qəribə gəldi. Axı, gec idi, axşam düşürdü. Mənim fikrə getdiyimi görüb:

- Narahat olmayın, sizi qonaq saxlayan deyiləm, söhbətim var sizinlə.

Etiraz etmədim. Dəniz sahili ilə gəzə-gəzə onlara getdik.

**(ardı növbəti sayımızda)**